UOT 327:620.9(262.81)
DOI: https://doi.org/10.30546/19063.2026.06.5043

XƏZƏR HÖVZƏSİ REGİONUNDA REGİONAL MÜNAQİŞƏLƏRİN VƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞIN ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ ROLU

MİNAYƏ MEHMAN QIZI İSKƏNDƏROVA
Bakı Dövlət Universitetinin doktorantı
Bakı ş., Akademik Zahid Xəlilov küçəsi 33, AZ1148
E-mail - ilahaiskanderova@gmail.com
Orcid ID- https://orcid.org/0009-0008-2025-3175

XÜLASƏ

Məqalədə Xəzər hövzəsi regionunda mövcud olan regional münaqişələrin enerji təhlükəsizliyinə təsiri və bu təsirin neytrallaşdırılmasında beynəlxalq əməkdaşlığın rolu tədqiq olunur. Xəzərin hüquqi statusu ətrafındakı uzunmüddətli mübahisələr, Ermənistan-Azərbaycan, Gürcüstan-Abxaziya və Gürcüstan-Cənubi Osetiya münaqişələri, habelə enerji infrastrukturunun "silaha çevrilməsi" halları nümunəsində region dövlətlərinin enerji siyasətlərinin təhlükəsizlik amilləri ilə sıx bağlılığı göstərilir. Tədqiqatda Bakı-Tbilisi-Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi və digər nəqliyyat-enerji layihələrinin regional sabitliyə həm müsbət (əməkdaşlıq platforması kimi), həm də mənfi (hədəf obyekti kimi) təsirləri müqayisəli təhlil edilir. Rusiya, Çin, Avropa İttifaqı və ABŞ kimi qeyri-regional aktorların Xəzər enerji resurslarına marağının regionun geosiyasi mənzərəsinə təsiri araşdırılır. Məqalənin əsas nəticəsi ondan ibarətdir ki, Xəzər hövzəsində enerji təhlükəsizliyi yalnız çoxtərəfli beynəlxalq əməkdaşlıq, institusional çərçivələrin (Xəzəryanı sammitlər, Cənub Qaz Dəhlizi Məşvərət Şurası, Şanxay Əməkdaşlıq Təşkilatı və s.) gücləndirilməsi və hərbi-siyasi risklərin diplomatik vasitələrlə idarə olunması yolu ilə təmin edilə bilər.

Açar sözlər: *Xəzər hövzəsi, enerji təhlükəsizliyi, regional münaqişələr, beynəlxalq əməkdaşlıq, Cənub Qaz Dəhlizi, Bakı-Tbilisi-Ceyhan, enerji diplomatiyası.*

GİRİŞ

Sovet İttifaqının dağılmasından sonra Xəzər hövzəsi dünya siyasətinin və qlobal enerji bazarlarının diqqət mərkəzində olan mühüm geosiyasi areallardan birinə çevrilmişdir. Bölgə təkcə zəngin karbohidrogen ehtiyatlarına malik olması ilə deyil, həm də Avropa, Asiya və Yaxın Şərqi birləşdirən nəqliyyat-tranzit dəhlizi kimi əhəmiyyəti ilə seçilir. Eyni zamanda, Xəzəryanı beş dövlətin (Azərbaycan, Qazaxıstan, Rusiya, Türkmənistan və İran) sərhədləri daxilində yerləşən bu region, uzun illər boyu həll olunmamış hüquqi statusu, ərazi mübahisələri və regional münaqişələrlə də səciyyələnir. Ermənistan-Azərbaycan, Gürcüstan-Abxaziya və Gürcüstan-Cənubi Osetiya münaqişələri bilavasitə Xəzər-Qara dəniz enerji dəhlizinin təhlükəsizliyinə təsir göstərən amillər sırasındadır.

Mövzunun aktuallığı bir neçə amillə şərtlənir. Birincisi, 2020-ci il 44 günlük Ermənistan-Azərbaycan müharibəsi göstərdi ki, regional hərbi münaqişələr birbaşa olaraq beynəlxalq əhəmiyyətli enerji infrastrukturunu (Bakı-Tbilisi-Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi) hədəfə çevirə bilər [11]. İkincisi, Rusiyanın Ukraynaya qarşı hərbi təcavüzündən sonra Avropa İttifaqının Rusiya enerji resurslarından asılılığını azaltmaq siyasəti Xəzər hövzəsinin alternativ təchizat mənbəyi kimi əhəmiyyətini kəskin şəkildə artırmışdır [12]. Üçüncüsü, Çinin "Bir kəmər, bir yol" təşəbbüsü və Şanxay Əməkdaşlıq Təşkilatı çərçivəsində apardığı enerji diplomatiyası regionda yeni geosiyasi rəqabət və əməkdaşlıq formaları yaratmışdır [1].

Tədqiqatın məqsədi Xəzər hövzəsi regionunda mövcud olan regional münaqişələrin enerji təhlükəsizliyinə təsir mexanizmlərini müəyyənləşdirmək və bu təsirlərin minimallaşdırılmasında beynəlxalq əməkdaşlığın rolunu təhlil etməkdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur: Xəzərin hüquqi statusu ətrafındakı mübahisələrin enerji siyasətinə təsirinin araşdırılması; regional münaqişələrin (xüsusilə Ermənistan-Azərbaycan münaqişəsinin) enerji infrastrukturuna təsirinin qiymətləndirilməsi; qeyri-regional aktorların (Rusiya, Çin, Avropa İttifaqı, ABŞ) enerji siyasətinin regional sabitliyə təsirinin təhlili; enerji təhlükəsizliyinin təmin olunmasında mövcud beynəlxalq əməkdaşlıq institutlarının səmərəliliyinin qiymətləndirilməsi.

Tədqiqatın metodoloji əsasını sistemli təhlil, müqayisəli-tarixi metod, hadisə təhlili (case-study) və institusional yanaşma təşkil edir. İşdə həmçinin beynəlxalq münasibətlər nəzəriyyəsinin realist, neoliberal və sosial-konstruktivist yanaşmalarından

istifadə olunmuşdur ki, bu da rəqabət-əməkdaşlıq kontinuumunun daha dərindən izah edilməsinə imkan verir [2].

ƏSAS MƏTN

Xəzər hövzəsinin geosiyasi və hüquqi xüsusiyyətləri

Xəzər dənizi dünyanın ən böyük qapalı su hövzəsi olub, təxminən 48 milyard barrel sübut olunmuş neft və 292 trilyon kubfut təbii qaz ehtiyatına malikdir [7]. Sovet İttifaqı dövründə Xəzər faktiki olaraq yalnız İran və SSRİ arasında bölünmüş su hövzəsi hesab olunurdu, lakin 1991-ci ildən sonra Azərbaycan, Qazaxıstan və Türkmənistanın müstəqillik qazanması ilə dənizin hüquqi statusu mürəkkəb beynəlxalq-hüquqi məsələyə çevrildi. Xəzəryanı dövlətlər arasında onun "dəniz", yoxsa "göl" statusuna malik olması ətrafındakı mübahisələr uzun illər davam etmişdir, çünki bu status dib sərvətlərinin bölüşdürülməsi prinsiplərini müəyyən edirdi [3].

2018-ci il avqustun 12-də Qazaxıstanın Aktau şəhərində imzalanmış "Xəzər dənizinin hüquqi statusu haqqında" Konvensiya uzun illər davam edən mübahisələrə qismən son qoydu. Konvensiya Xəzəri nə dəniz, nə də göl kimi deyil, özünəməxsus hüquqi statusa malik su hövzəsi kimi tanıdı və sahilyanı dövlətlərə suyun altındakı sərvətlərə dair suveren hüquqlar verdi [3]. Bununla belə, dibin milli sektorlara bölünməsi, xüsusilə Xəzərin cənub hissəsində Azərbaycan, İran və Türkmənistan arasında sərhədyanı yataqlar üzərində mübahisələr tam həll olunmamış qalmaqdadır [10; 9]. Bu, transxəzər boru kəmərlərinin (məsələn, Transxəzər Qaz Boru Kəməri layihəsinin) reallaşdırılmasını da çətinləşdirən amillərdən biridir.

Orazgaliyev və Araral (2019) tərəfindən aparılan tədqiqatda göstərilir ki, Xəzərin şimal hissəsində (Rusiya, Qazaxıstan, Azərbaycan arasında) əməkdaşlıq modeli uğurla tətbiq olunduğu halda, cənub hissəsində (Azərbaycan, İran, Türkmənistan) "məhbusun dilemması" oyun nəzəriyyəsi modelinə uyğun rəqabət və əməkdaşlıqsızlıq davam etməkdədir [9]. Bu fərq, əsasən, dövlətlərin strateji hesablamaları, geosiyasi maraqları və mədəni məsafə amilləri ilə izah olunur.

Regional münaqişələrin enerji infrastrukturuna təsiri

Xəzər-Qara dəniz-Cənubi Qafqaz məkanında mövcud olan "dondurulmuş" və aktiv münaqişələr (Ermənistan-Azərbaycan Qarabağ münaqişəsi, Gürcüstan-Abxaziya və Gürcüstan-Cənubi Osetiya münaqişələri) regionun enerji-nəqliyyat dəhlizi kimi fəaliyyətinə birbaşa təsir göstərir [16]. Zhiltsov və Saviçevanın (2021) qeyd etdiyi kimi, 2020-ci ilin payızında baş vermiş hərbi əməliyyatlar Cənubi Qafqazda güc balansını dəyişdi və Türkiyənin regionda, xüsusilə enerji sferasında mövqeyinin güclənməsinə səbəb oldu [16].

2020-ci ilin sentyabr-noyabr aylarında baş vermiş İkinci Qarabağ müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə şəhərinə, o cümlədən Bakı-Tbilisi-Ceyhan neft kəməri və Cənub Qaz Dəhlizinin keçdiyi "Gəncə dəhlizi" adlanan əraziyə raket zərbələri endirməsi halları qeydə alınmışdır [11]. Şahbazovun (2021) təhlilinə əsasən, bu hücumlar bilavasitə Avropa İttifaqının enerji təhlükəsizliyi baxımından ciddi narahatlıq doğurmuşdur.Belə ki, məhz həmin dövrdə Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan Trans-Adriatik Boru Kəməri (TAP) istismara verilmək ərəfəsində idi [11]. Bu fakt onu göstərir ki, regional hərbi münaqişələr təkcə iştirakçı tərəflərin deyil, həm də üçüncü ölkələrin məsələn, Gürcüstan, Türkiyə və Avropa İttifaqı üzvü olan dövlətlərin enerji təhlükəsizliyinə real təhlükə yarada bilər.

Bakı-Tbilisi-Ceyhan və Cənub Qaz Dəhlizi: əməkdaşlıq platforması kimi enerji layihələri

Münaqişələrin mövcudluğuna baxmayaraq, Xəzər regionunda reallaşdırılan irimiqyaslı enerji layihələri regional əməkdaşlığın nümunəsi kimi çıxış edir. 2006-cı ildə istismara verilən Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri Azərbaycan, Gürcüstan və Türkiyə arasında strateji tərəfdaşlığın rəmzinə çevrilmişdir və Azərbaycan neft ixracatının 83 faizədək hissəsini daşımaqdadır [4]. Bayramovun (2022) apardığı tədqiqatda BTC, Cənub Qaz Dəhlizi (CQD) və Xəzər Ekoloji Proqramı funksionalist əməkdaşlıq mexanizmlərinin nümunəsi kimi təhlil olunur və göstərilir ki, bu layihələr "Yeni Böyük Oyun" konsepsiyasının fərz etdiyindən daha çox konstruktiv əməkdaşlığa əsaslanır [4].

2020-ci ilin dekabrında tam istismara verilən Cənub Qaz Dəhlizi (Cənubi Qafqaz Boru Kəməri, Trans-Anadolu Boru Kəməri və Trans-Adriatik Boru Kəməri seqmentlərindən ibarət, ümumi uzunluğu 3500 km olan) Azərbaycan qazının ilk dəfə olaraq birbaşa Avropa bazarlarına çıxarılmasını təmin etmişdir. 2021-ci il fevralın 11-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurasının yeddinci nazirlər görüşündə Azərbaycanın energetika naziri və Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı tərəfindən imzalanmış birgə bəyanatda CQD-nin Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində və regional qaz bazarlarının inteqrasiyasında strateji rolu vurğulanmışdır [13]. 2022-ci ildən başlayaraq

Rusiya-Ukrayna müharibəsi fonunda Avropa İttifaqı Azərbaycandan qaz idxalını əhəmiyyətli dərəcədə artırmaq niyyətini bəyan etmişdir [12].

Xəzər hövzəsinin enerji təhlükəsizliyi problemini təkcə regional dövlətlərin deyil, həm də qlobal güc mərkəzlərinin maraqları kontekstində araşdırmaq zəruridir. Rusiya ənənəvi olaraq regionda hegemon mövqeyini qorumağa çalışır və bu məqsədlə həm ikitərəfli, həm də çoxtərəfli formatlardan (Xəzəryanı dövlətlərin sammitləri) istifadə edir [10]. Eyni zamanda, Rusiyanın Ukraynaya qarşı təcavüzü nəticəsində Qərb sanksiyalarının tətbiqi Qazaxıstan kimi ölkələri Xəzər Boru Kəməri Konsorsiumundan (Rusiya istiqamətli) əlavə olaraq BTC kimi alternativ marşrutlara ixracını artırmağa sövq etmişdir.

Çinin regiona marağı əsasən Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində reallaşır. Tədqiqatlar göstərir ki, Çinin Xəzər hövzəsindəki enerji diplomatiyası üç əsas istiqamətdə ŞƏT, BKBY və qarşılıqlı faydalı əməkdaşlıq modelində inkişaf etməkdədir və bu, region dövlətlərinin Qərbdən Şərqə doğru diversifikasiya meylini gücləndirir [1]. Bununla belə, Çinin artan iqtisadi nüfuzu Avropa İttifaqı ilə enerji resursları uğrunda rəqabətin yeni formalarını da yaratmaqdadır [1].

Avropa İttifaqının Xəzər siyasəti isə enerji təchizatının diversifikasiyası zərurətindən irəli gəlir. Skripnikova və Taqonun (2022) qeyd etdiyi kimi, AİB-in Xəzər regionuna yanaşması hələ də inteqrasiya olunmuş strategiyadan məhrumdur, halbuki İttifaq eyni zamanda həm enerji idxalçısı, həm də qlobal ekoloji lider rolunu oynamağa çalışır [12]. Erşen və Çelikpalanın (2019) tədqiqatına görə, Türkiyə Avrasiyanın dəyişən enerji geosiyasətində əsas tranzit ölkə kimi çıxış edərək, Xəzər resurslarının Avropaya çatdırılmasında körpü rolunu oynayır [5]. ABŞ-nin regional siyasəti isə ənənəvi olaraq Rusiya və İrandan asılı olmayan enerji marşrutlarının dəstəklənməsinə, eləcə də regional münaqişələrin sülh yolu ilə həllinə yönəlmişdir.

Cədvəl 1. Xəzər hövzəsində enerji təhlükəsizliyi və regional əməkdaşlığın əsas istiqamətləri

Əsas istiqamət	Mövcud vəziyyət	Əsas problemlər	Əməkdaşlıq mexanizmləri
Xəzərin hüquqi statusu	2018-ci il Aktau Konvensiyası ilə xüsusi hüquqi status müəyyən edilmişdir	Dəniz dibinin bəzi hissələrinin bölüşdürülməsi üzrə mübahisələr	Xəzəryanı dövlətlərin sammitləri, Aktau Konvensiyası
Enerji infrastrukturu	BTC və Cənub Qaz Dəhlizi regional enerji əlaqələrinin əsasını təşkil edir	Hərbi münaqişələr və geosiyasi risklər	Azərbaycan–Gürcüstan–Türkiyə əməkdaşlığı, CQD Məşvərət Şurası
Regional münaqişələr	Münaqişələr enerji və nəqliyyat dəhlizlərinə təsir göstərir	İnfrastrukturun təhlükəsizliyi və siyasi qeyri-sabitlik	Diplomatik və çoxtərəfli mexanizmlər
Beynəlxalq aktorların iştirakı	Rusiya, Çin, Aİ, ABŞ və Türkiyə regionda müxtəlif maraqlara malikdir	Geosiyasi rəqabət və enerji marşrutları uğrunda rəqabət	Çoxtərəfli və ikitərəfli əməkdaşlıq
Ekoloji təhlükəsizlik	Xəzər Ekoloji Proqramı regional əməkdaşlığın nümunəsidir	Neft-qaz hasilatı və dənizin çirklənməsi riski	Birgə monitorinq və ekoloji layihələr
Enerji ixracının diversifikasiyası	Şərq-Qərb və Şimal-Cənub marşrutları inkişaf etdirilir	Tranzit və bazar riskləri	Alternativ boru kəmərləri və nəqliyyat dəhlizləri

Mənbə: Araşdırma nəticəsində müəllifin özü tərəfindən hazırlanmışdır.

Enerji təhlükəsizliyinin təmin olunmasında beynəlxalq əməkdaşlıq mexanizmləri

Xəzər hövzəsində enerji təhlükəsizliyinin möhkəmləndirilməsi yalnız institusional əməkdaşlıq mexanizmlərinin inkişafı ilə mümkündür. Bu baxımdan Xəzəryanı dövlətlərin dördillik sammitləri (Aşqabad 2002, Tehran 2007, Bakı 2010, Həştərxan 2014, Aktau 2018) mühüm rol oynamışdır [10]. 2018-ci il Aktau Konvensiyası, hərbi təhlükəsizlik, ekologiya, nəqliyyat və digər sahələrdə əməkdaşlığın hüquqi bazasını təşkil etməklə yanaşı, xarici hərbi qüvvələrin Xəzərdə yerləşdirilməsini qadağan edərək regionun "daxili" təhlükəsizlik arxitekturasını gücləndirmişdir [3].

Cənub Qaz Dəhlizi Məşvərət Şurası (outhern Gas Corridor Advisory Council) kimi çoxtərəfli institusional platformalar istehsalçı, tranzit və istehlakçı ölkələr arasında birbaşa dialoqu təmin etməklə, enerji layihələrinin siyasi risklərdən qorunmasına töhfə verir [13]. Orazgaliyev və Araralın (2019) təklif etdiyi kimi, qlobal "ortaq sərvətlər" nəzəriyyəsi

kontekstində Xəzərin idarə olunmasında institusional etimadın artırılması, monitorinq mexanizmlərinin gücləndirilməsi və öhdəliklərin etibarlılığının təmin edilməsi uzunmüddətli əməkdaşlığın açarıdır [9]. Energetik təhlükəsizlik anlayışının nəzəri konseptuallaşdırılmasında ənənəvi realist və neoliberal yanaşmalardan əlavə, sosial-konstruktivist model də mühüm əhəmiyyət kəsb edir. Andreinin (2016) qeyd etdiyi kimi, Xəzər-Qara dəniz regionunda enerji resursları həm münaqişəni qızışdıran, həm də sabitliyi möhkəmləndirən ikili funksiyaya malikdir və bu ikiliyi başa düşmək üçün dövlət-mərkəzli təhlildən kənara çıxmaq zəruridir [2].

Enerji təhlükəsizliyi anlayışı yalnız hərbi-siyasi təhlükələrlə məhdudlaşmır, o həmçinin ekoloji dayanıqlığı da əhatə edir. 1998-ci ildə təsis edilmiş Xəzər Ekoloji Proqramı (CEP) Xəzəryanı dövlətlərin dənizin ekosisteminin qorunması sahəsindəki əməkdaşlığının ilk institusional nümunələrindən biri olmuşdur [4]. Bayramovun (2022) qeyd etdiyi kimi, CEP çərçivəsində reallaşdırılan layihələr göstərir ki, ekoloji sahədə əməkdaşlıq siyasi ziddiyyətlərdən nisbətən asılı olmayan, funksional əməkdaşlıq modelinin formalaşmasına şərait yaradan sahədir [4]. Bu təcrübə digər sahələrdə məsələn, dəniz nəqliyyatının təhlükəsizliyi, balıqçılıq ehtiyatlarının idarə olunması və fövqəladə hallara qarşı birgə reaksiya mexanizmlərinin yaradılmasında da tətbiq oluna bilər. Karbohidrogen hasilatı zamanı dənizin çirklənməsi riski, xüsusilə offşor neft-qaz yataqlarının işlənməsi ilə bağlı, Xəzəryanı dövlətlər arasında ekoloji monitorinq sistemlərinin əlaqələndirilməsini zəruri edir. Neft daşınmasının artan həcmi fonunda hər hansı bir dövlətin ekoloji öhdəliklərə əməl etməməsi bütün regionun enerji-ekoloji təhlükəsizliyinə mənfi təsir göstərə bilər ki, bu da kollektiv məsuliyyət prinsipinin əhəmiyyətini artırır.

Enerji təhlükəsizliyi məsələsinə ənənəvi olaraq təchizatın davamlılığı ("supply security") prizmasından yanaşılsa da, son illər aparılan tədqiqatlar tələbatın təhlükəsizliyi ("demand security") anlayışının da mühüm əhəmiyyət kəsb etdiyini göstərir. Belə ki, Xəzər hövzəsi ölkələrinin milli iqtisadiyyatları neft-qaz ixracatından asılılığı yüksək olan modelə əsaslandığından, ixrac bazarlarının sabitliyi, qiymət volatilliyi və alternativ bazarların (məsələn, Çin bazarının) inkişafı bu ölkələr üçün strateji əhəmiyyət kəsb edir. Asiya Bankının hesabatına əsasən, enerji-tranzit ölkələrindəki siyasi qeyri-sabitlik (Ukrayna, Türkiyə) Azərbaycan, Qazaxıstan və Türkmənistan üçün tələbat təhlükəsizliyi riskini artıran mühüm amildir və bu, alternativ marşrutların (Transxəzər Boru Kəməri kimi) əhəmiyyətini bir daha vurğulayır. Bu kontekstdə, region dövlətlərinin ixrac marşrutlarını diversifikasiya etmək siyasəti (Şərq-Qərb və Şimal-Cənub dəhlizlərinin paralel inkişafı) təkcə iqtisadi rasionallıqdan deyil, həm də geosiyasi risklərin idarə olunması zərurətindən irəli gəlir. Azərbaycanın həm Rusiya (Bakı-Novorossiysk), həm Gürcüstan (Bakı-Supsa, BTC), həm də Şərq (Bakı-Astara-İran) istiqamətlərində paralel ixrac infrastrukturuna malik olması bu diversifikasiya strategiyasının praktiki nümunəsidir.

Azərbaycanın Qarabağı işğaldan azad etdikdən sonra regionda formalaşan yeni geosiyasi reallıq enerji və nəqliyyat əməkdaşlığı üçün əlavə imkanlar yaratmışdır. Ermənistan-Azərbaycan sülh prosesinin irəliləməsi, xüsusilə "Zəngəzur dəhlizi" adlanan nəqliyyat-kommunikasiya layihəsinin reallaşdırılması istiqamətində aparılan danışıqlar, gələcəkdə Cənubi Qafqazın vahid nəqliyyat-enerji məkanına inteqrasiyası perspektivini gündəmə gətirmişdir. Bu proses uğurla başa çatdığı təqdirdə, region təkcə Şərq-Qərb deyil, həm də Şimal-Cənub istiqamətində əlavə tranzit dəhlizlərinə malik olacaq ki, bu da həm regional dövlətlərin, həm də Avropa İttifaqının enerji təhlükəsizliyinə müsbət töhfə verə bilər.

NƏTİCƏ

Aparılan tədqiqat göstərir ki, Xəzər hövzəsi regionunda enerji təhlükəsizliyi problemi regional münaqişələrlə üzvi surətdə bağlıdır. Xəzərin hüquqi statusu ətrafındakı uzunmüddətli mübahisələr, Ermənistan-Azərbaycan, Gürcüstan-Abxaziya və Gürcüstan-Cənubi Osetiya münaqişələri, eləcə də enerji infrastrukturunun hərbi-siyasi təzyiq vasitəsinə çevrilməsi halları regionun enerji-nəqliyyat potensialının tam reallaşdırılmasına ciddi maneələr yaradır. Nəticələr göstərir ki, məhz münaqişəli mühitdə belə, Bakı-Tbilisi-Ceyhan neft kəməri və Cənub Qaz Dəhlizi kimi irimiqyaslı transmilli layihələr uğurla reallaşdırıla bilmiş və regional dövlətlər arasında konstruktiv əməkdaşlığın nümunəsinə çevrilmişdir. Bu, onu göstərir ki, ortaq iqtisadi maraqlar müəyyən şəraitdə geosiyasi ziddiyyətləri neytrallaşdıra bilər.

Tədqiqatın əsas nəticəsi olaraq aşağıdakılar qeyd oluna bilər: birincisi, Xəzər hövzəsində enerji təhlükəsizliyinin təmin olunması üçün regional münaqişələrin diplomatik-siyasi vasitələrlə həlli prioritet vəzifə olaraq qalmaqdadır; ikincisi, çoxtərəfli institusional mexanizmlərin gücləndirilməsi enerji infrastrukturunun təhlükəsizliyinin təmin olunmasında həlledici əhəmiyyət kəsb edir; üçüncüsü, qeyri-regional aktorların (Rusiya, Çin, Avropa İttifaqı,

ABŞ) rəqabəti ilə yanaşı, onların ortaq maraqlarının (məsələn, nəqliyyat marşrutlarının təhlükəsizliyi) müəyyənləşdirilməsi regional sabitliyin möhkəmləndirilməsinə şərait yarada bilər.

Xəzər hövzəsi regionunun enerji təhlükəsizliyi arxitekturasının davamlılığı, ilk növbədə, region dövlətlərinin milli maraqlarını ortaq təhlükəsizlik məqsədləri ilə uzlaşdırma qabiliyyətindən, ikincisi isə beynəlxalq hüququn norma və prinsiplərinə hörmətin təmin olunmasından asılı olacaqdır. Xəzər hövzəsində bərpa olunan enerji mənbələrinin (külək, günəş) inkişafının regional əməkdaşlığa təsirinin öyrənilməsi perspektivli istiqamət kimi qiymətləndirilə bilər.

ƏDƏBİYYAT SİYAHISI:

1. Adilbek A. et al. China's energy diplomacy in the Caspian Basin and its impact on the energy security of Europe // Regional Sustainability, 2024, Vol. 5, Issue 1.
2. Andrei R. Energy Security: Challenges and Opportunities in the Caspian-Black Sea Region // New Europe College Yearbook, 2016.
3. Aktau Konvensiyası. Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya, 12 avqust 2018-ci il.
4. Bayramov A. Constructive Cooperation in the Caspian Sea Region? An Alternative Image. London: Routledge, 2022. 220 p.
5. Erşen E., Çelikpala M. Turkey and the changing energy geopolitics of Eurasia // Energy Policy, 2019, Vol. 128, p. 584–592.
6. Hajizada M. Challenges and Opportunities for Establishing a Security Community in the Wider Black Sea Area. 2018.
7. Ibrayeva A., Sannikov D.V., Kadyrov M.A., Zapevalov V.N., Hasanov E.L., Zuev V.N. Importance of the Caspian Countries for the European Union Energy Security // International Journal of Energy Economics and Policy, 2018, Vol. 8, No. 3, p. 150–159.
8. Mahasti A., Wirasenjaya A.M. The Implication of Caspian Basin Energy Politics Towards the Establishment of the United States Energy Security in Caspian Region // Dauliyah: Journal of Islamic and International Affairs, 2024, Vol. 9, No. 1, p. 22–40.
9. Orazgaliyev S., Araral E. Conflict and Cooperation in Global Commons: Theory and Evidence from the Caspian Sea // International Journal of the Commons, 2019, Vol. 13, No. 2, p. 962–976.
10. Rozhkov I.S. Energy Issues as the Trigger of Formation of an International Regime of the Caspian Sea // Vestnik MGIMO-Universiteta, 2018, No. 1(58), p. 110–126.
11. Shahbazov F. The Second Karabakh War and Caspian Energy // CACI Analyst, 19 April 2021.
12. Skripnikova N., Taghon S. The European Union's Approach to the Caspian Sea Region: The Energy-Environment Nexus. UNU-CRIS Policy Brief No. 04. Bruges: United Nations University, 2022. 13 p.
13. European Commission. Joint Statement from the Seventh Ministerial Meeting of the Southern Gas Corridor Advisory Council. Baku, 11 February 2021.
14. Stegen K.S., Kusznir J. Outcomes and strategies in the 'New Great Game': China and the Caspian states emerge as winners // Journal of Eurasian Studies, 2015, Vol. 6, Issue 2, p. 91–106.
15. Yildirim T. Sources and Limitations of the Energy Cooperation in the Caspian Sea Region: Master's Thesis. Ankara: Middle East Technical University, 2024.
16. Zhiltsov S.S., Savicheva E.M. Regional Security in the South Caucasus: The Energy Factor // Post-Soviet Issues (Проблемы постсоветского пространства), 2021, Vol. 8, No. 3, p. 331–340.

РОЛЬ РЕГИОНАЛЬНЫХ КОНФЛИКТОВ И МЕЖДУНАРОДНОГО СОТРУДНИЧЕСТВА В ОБЕСПЕЧЕНИИ ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ В КАСПИЙСКОМ РЕГИОНЕ

Миная Мехман Искандарова
Бакинский Государственный Университет, докторант

РЕЗЮМЕ

В статье исследуется влияние региональных конфликтов в Прикаспийском регионе на энергетическую безопасность, а также роль международного сотрудничества в нейтрализации данного влияния. На примере длительных споров вокруг правового статуса Каспийского моря, армяно-азербайджанского, грузино-абхазского и грузино-южноосетинского конфликтов, а также случаев «превращения энергетической инфраструктуры в оружие» показана тесная связь энергетической политики государств региона с факторами безопасности. В исследовании проводится сравнительный анализ как позитивного (в качестве платформы сотрудничества), так и негативного (в качестве объекта поражения)

влияния нефтепровода Баку-Тбилиси-Джейхан, Южного газового коридора и других транспортно-энергетических проектов на региональную стабильность. Рассматривается влияние интереса внерегиональных акторов России, Китая, Европейского союза и США к каспийским энергетическим ресурсам на геополитическую картину региона. Основной вывод статьи заключается в том, что энергетическая безопасность в Прикаспийском регионе может быть обеспечена только посредством многостороннего международного сотрудничества, укрепления институциональных механизмов (Каспийские саммиты, Консультативный совет Южного газового коридора, Шанхайская организация сотрудничества и др.) и управления военно-политическими рисками дипломатическими средствами.

Ключевые слова: *Прикаспийский регион, энергетическая безопасность, региональные конфликты, международное сотрудничество, Южный газовый коридор, Баку-Тбилиси-Джейхан, энергетическая дипломатия.*

THE ROLE OF REGIONAL CONFLICT AND INTERNATIONAL COOPERATION IN ENERGY SECURITY IN THE CASPIAN BASIN REGION

Minaya Mehman Iskandarova
Baku State University
PhD Candidate

SUMMARY

The article examines the impact of regional conflicts in the Caspian basin on energy security and the role of international cooperation in mitigating this impact. Drawing on the long-standing disputes over the legal status of the Caspian Sea, the Armenia-Azerbaijan, Georgia-Abkhazia and Georgia-South Ossetia conflicts, as well as instances of the "weaponization" of energy infrastructure, the article demonstrates the close link between the energy policies of regional states and security factors. It offers a comparative analysis of the positive (as a platform for cooperation) and negative (as a target of attack) effects of the Baku-Tbilisi-Ceyhan oil pipeline, the Southern Gas Corridor and other transport-energy projects on regional stability. The interest of non-regional actors — Russia, China, the European Union and the United States — in Caspian energy resources and its effect on the region's geopolitical landscape is also explored. The article concludes that energy security in the Caspian basin can only be ensured through multilateral international cooperation, the strengthening of institutional frameworks (Caspian summits, the Southern Gas Corridor Advisory Council, the Shanghai Cooperation Organization, etc.) and the management of politico-military risks through diplomatic means.

Keywords: *Caspian basin, energy security, regional conflicts, international cooperation, Southern Gas Corridor, Baku-Tbilisi-Ceyhan, energy diplomacy.*

Rəyçi: Siyasi elmlər üzrə fəlsəfə doktoru
Nigar Zahid qızı Dünyamalıyeva

Məqalə redaksiyaya daxil olub: 07.07.2026
Çapa qəbul olunub: 27.08.2026
The date of the admission of the article to the editorial office: 07.07.2026
Accepted for publication: 27.08.2026